*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 105-109* *ISSN: 2663-4406*

*Tənqidi realizm epoxası*

**UOT:** 821.512.162(091)

Allahverdi Məmmədli*

# CƏLİL MƏMMƏDQULUZADƏNİN NƏSRİ AZƏRBAYCANÇILIQ KONTEKSTİNDƏ

**"Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

***Xülasə***

Məqalədə görkəmli bir Azərbaycan yazıçısının – satirik, publisist, demokrat-pedaqoq, realist nəsr ustası Cəlil Məmmədquluzadənin nəsrləri təhlil edilmişdi. Müəllif konkret nümunələr və faktlar əsasında azərbaycançılıq kontekstində nəsrinin ideoloji və bədii cərəyanlarını və xüsusiyyətlərini tədqiqini aparıb. Qeyd edir ki, tənqidi realizmin banisi, Azərbaycanda realist satira və yumor məktəbinin banisi olan C.Məmmədquluzadə azadlığı, millətin tərəqqisi və doğma dilinin inkişafı uğrunda vuruşdu, bu da nəsrində qabarıq şəkildə öz əksini tapdı.

**Açar sözlər:** Cəlil Məmmədquluzadə, azərbaycançılıq, nəsr, ideoloji və bədii istiqamətlər, tənqidi realizm, millət

## JALIL MAMMADGULUZADEH'S PROSE IN THE CONTEXT OF AZERBAIJANISM

***Summary***

The article deals with the analysis of the outstanding Azerbaijani satirist, publicist, democrat – enlightener, master of the realistic prose Jalil Mamedguluzadeh's prose. The ideological – artistic directions and features of his prose are analyzed on the basis of the concrete facts and examples in the context of Azerbaijanism. The founder of critical realism, realistic school of satire and humor in Azerbaijan J.Mammadguluzadeh led the struggle for the nation's freedom, progress, development of the native language. All these facts are reflected in the artistic form in his prose.

**Key words**: Jalil Mammadguluzadeh, prose, ideological-artistic directions, critical realism, Azerbaijanism, nation, consciousness, native language

## ПРОЗА ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСТВА

***Резюме***

В статье анализируется проза выдающегося азербайджанского писателя – сатирика, публициста, демократа-просветителя, мастера реалистической прозы Джалила Мамедгулузаде. На основе конкретных примеров и фактов исследуются идейно-художественные направления и особенности его прозы в контексте

* Bakı Dövlət Universiteti. Filologiya elmləri doktoru.

азербайджанства. Отмечается, что основоположник критического реализма, реалистической школы сатиры и юмора в Азербайджане Дж.Мамедгулузаде вел борьбу за свободу, прогресс нации, развитие родного языка, что нашло яркое художественное отражение в его прозе.

**Ключевые слова**: Джалил Мамедгулузаде, азербайджанство, проза, идейно-художественные направления, критический реализм, нация

**Giriş.** Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycan ictimai-ədəbi mühitin müəyyən zaman faktı olsa da, bu heyrətamiz yaradıcılıq dünyasına hər nəslin öz qayıdışı, öz baxışı var. Bu gün özünün yeni və əbədi müstəqillik dövrünü yaşayan Azərbaycanın indiki nəslinin Cəlil Məmmədquluzadənin bədii irsinə yanaşma tərzi isə daha geniş diapazonlu, ideoloji kanonlardan uzaq, daha obyektiv olmalıdır. Heç kəsə sirr deyil ki, Cəlil Məmmədquluzadə yaradıcılığının elə məqamları var ki, bu məqamlar haqqında Azərbaycan tədqiqatçısının yalnız indi ortaya çıxarmaq, bütöv söz demək imkanı vardır. Bu mənada Cəlil Məmmədquluzadənin çoxşaxəli tematikası, idealları sırasında azərbaycançılıq səyləri ayrıca bir araşdırma faktı tələb edir.

Əvvəlcə azərbaycançılıq barədə. Azərbaycançılığın milli mədəniyyət, milli bədii fikir, ictimai dünyagörüşü istiqamətində qədim tarixi vardır. Millətin formalaşma prosesi ilə tarixən üst-üstə düşən azərbaycançılıq fərddən cəmiyyətə, cəmiyyətdən dövlət səviyyəsinə qədər böyük bir inkişaf yolu keçmişdir. Mədəniyyətin müxtəlif pillələri tədrici təkamülün mərhələləri hesab oluna bilər. Onların hər biri keçmişin bəhrəsi olduğu kimi, həm də gələcəyin formalaşmasında rol oynayır. Mədəniyyətin müxtəlif pillələri bizim kontekstdə həm də azərbaycançılığın çeşidli pillələrini özündə ehtiva edir. Hər bir millətin mədəniyyəti onu təmsil edən xalqın milli dəyərləri üzərində inkişaf edir.

Azərbaycan mədəniyyəti, bədii fikri, bədii söz sənəti tarixən və əsasən, vətən, millət və ana dili anlayışlarını özündə birləşdirən azərbaycançılığın ifadəsinə, istiqlalın əldə edilməsinə, milli şüurun oyanmasına, dilin varlığının qorunmasına xüsusi səy göstərmişdir.

İdeologiyada mədəniyyətin başlıca vəzifəsi xalqda vətən əxlaqı tərbiyə etməkdir. Azərbaycançılıq vətən əxlaqının tərkib hissəsi kimi zaman-zaman ziyalıların istinad yeri olmuşdur. Bu ideologiyanın milli bədii söz sənətində daimi mövzu kimi qalması da bu zərurətin dərk edilməsindən doğur.

Vətənin müqəddəratı, millətin taleyi, ana dilinin qorunması və inkişafı ilə bağlı məsələlər azərbaycançılığın özəyini təşkil edir.

Özlüyündə ayrı-ayrı mənaları ehtiva edən azərbaycanlı və azərbaycançı anlayışları fərqli semantikaya malikdir. Müəyyən tale, tarix, ideya birliyinə malik olan müxtəlif xalq və etnoslar birlikdə Azərbaycan xalqını təmsil edirlər.

Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik və müstəqillik ideyası durur və bu nəinki indi, həm də gələcəkdə də bir ölkədə yaşayan azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcək.

Cəlil Məmmədquluzadənin yaradıcılığında milli ideya-azərbaycançılıq qırmızı xətlə keçir. Xüsusilə, onun nəsrində millətin oyanışına, özünüdərkinə, tərəqqisinə çalışmaq məramı qabarıq şəkildə ifadə olunmuşdur. Yazıçının fundamental nəsr əsəri olan "Danabaş kəndinin əhvalatları" (1894) bütün bədii məziyyətləri ilə məhz bu mərama xidmət edir.

Ədib əzilən və öz hüquqlarını tələb etməyən insanların dərdini ifadə etməklə, onların niyə bu günə qaldıqlarının səbəbini göstərir. Buna səbəb kimi mühit və bu mühitin insanı öz hüquqlarından məhrum etməsi önə çəkilir. Müəllif tipik bir kəndin simasında bütöv bir ölkənin gerçək mənzərəsini yaratmaqla həyəcan təbili çalır. Təsirli vasitələrlə göstərir ki, vətəndaş öz həmkəndlilərinin halına acımağı belə yada sala bilmir. İmkanı olan hər kəs özündən aşağını təhqir etməyə, yamanlamağa, onu ac-yalavac qoymağa, var-dövlətini əlindən çıxarmağa hazırdır. Xudayar bəyin ölən "dostunun" dul arvadı Zeynəbə inadkar "məhəbbəti" onun olan-qalanını əlindən almaq məqsədinə qulluq edir. Hətta Zeynəbin doğmaca oğlu da öz mənafeyi naminə anasından imtina etməyə meyillidir.. Bu kənddə əsrin yeni qaydalarından xəbərsiz insanlar yaşayır. Ədib dünyadan xəbərsizliyin, hüquqsuz-

luğun günahını bir tərəfdən rejimdə, imperiya siyasətində görürsə, digər tərəfdən də həyat uğrunda mübarizə yollarını bilməyən insanların özündə axtarır. Bu halal insanlar ancaq şükranlıq etməklə yaşayırlar. Müəllif isə onlara istiqlal düşüncəsi aşılamaq istəyir.

"Poçt qutusu", "Qurbanəli bəy", "İranda hürriyyət" və bu tipli onlarca nəsr əsərlərində Vətənin müstəmləkə zülmündən azad olması, millətin öz hüquqlarını anlaması barədə düşünməyə yönəldilməsi məsələləri qoyulur. Ancaq qeyd etməliyik ki, bu hekayələr Cəlil Məmmədquluzadə yaradıcılığının kütlənin bir xalq kimi formalaşması yollarındakı xidmətlərini diqqət mərkəzinə çəkir.

Əlbəttə, "Poçt qutusu"ndakı Novruzəlinin adi poçt qutusuna nabələdliyi bir xalqın savadsızlığının ümumiləşdirilmiş faktı kimi ibrətamizdir. Lakin bu kiçik hekayə həm də insanın öz hüquqları uğrunda mübarizə barədə düşünməkdən çəkinmək faktını da ifadə edir: Novruzəli onun savadsızlığına bais olan, onu mütiliyə alışdıran rejimdə heç bir günah görə bilmir.

Yazıçı, əslində, novruzəlilərin sivil bir xalq kimi formalaşmasına mane olan müstəmləkəçilik siyasətini daha çox satira atəşinə tutur. Ədəbiyyatşünaslıqda etiraf olunduğu kimi, "divanxananı yaxşı tanımağa məcbur edildiyi halda poçt qutusunun, poçtxananın mahiyyətini bilməyən Novruzəlinin taleyinin təqdimi ilə ədib Azərbaycan kəndlisinin böyük müdafiəçisi olduğunu nəzərə çatdırmışdır" [2, s.13].

Müəllif Novruzəlinin savadsızlığının, öz hüquqlarını bilməməsinin səbəbini müstəmləkəçilik siyasətində olduğunu göstərmişdir. Çar Rusiyası yerli millətlərin inkişafına daim əngəl törətdiyindən poçt məmuru da başqa millətin nümayəndəsidir.

"Qurbanəli bəy" hekayəsində də milli azadlıq ideyasının dolayısı yolla ifadəsi və əsərin bütün ruhunda Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş imperiya siyasətinin ifşa məqamları var. Hekayənin ilk sətri: "Xəbər çıxdı ki, bu gün naçalnik gəlir kəndə və sonra məlum oldu ki, pristavın arvadının ad qoyulan günüdür" [3, c.1, s.174]. Və sonra bu xanımın – yadellinin arvadının ad gününün məhz Azərbaycan mühitində necə təmtəraqla qeyd edilməsindən bəhs edilir.

Qurbanəli bəyin "tostuna" diqqət edək: "Mən özümü bu gün xoşbəxt hesab eyləyirəm ki, bu məclisdə varam. Allah sənin ərin Mixail Pavloviçi bizim mahaldan uzaq eləməsin. Ondan ötrü ki, çünki nə qədər ki, Mixail Pavloviç bizim mahalda deyildi, bizim kəndlilər də bədbəxt idilər, mən də bədbəxt idim... Naçalnik ağa, sən bizim başımızın sahibisən... Qurban sənə mənim canım. Nə qədər ki, mən sağam, nökərəm sənə" [ 3, c.1, s.183].

Qurbanəli bəy obrazı yaltaqlığın yox, mövcud şəraitdə müəyyən dərəcədə ayıqlığın ifadəçisidir. Onda Kərbəlayi Qasıma müəyyən mərhəmət hissi var. O, Qarabağ atı ilə qürur duyur. Qurbanəli bəy naçalniki və onun xanımını bir növ ələ salır. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə apardığı üçün Azərbaycan bəyini rus naçalniki qarşısında alçaltmazdı. Mirzə Cəlilin Qurbanəli bəyi rus naçalnikinin ailəvi məclisində bir növ kefkomluq etməyi bacaran obraz kimi diqqəti cəlb edir

Bu hekayələrdən aydın olur ki, millət özünü dərk etməyincə, tərəqqisi mümkün deyil. Özünüdərkin əsasında isə millətin, Vətənin müstəqilliyi dayanır.

Mirzə Cəlil üçün, bütövlükdə mollanəsrəddinçilərdən ötrü hürriyyət ən böyük mədəniyyət və milli dirçəliş atributu olmuşdur. Ancaq hürriyyət qazanmaq üçün hürriyyətin - azadlığın nə olduğunu bilmək lazımdır. Ədib "İranda hürriyyət" (1906) hekayəsində öz hüququnu dərk etməyən, hürriyyət haqqında anlayışı olmayan, bir qarın çörək üçün ölkələrə səpələnən, getdikləri ölkələrdə də eyni aclıq və səfalətlə üzləşən insanların acı taleyini qələmə almışdır.

Bəs İranda və Azərbaycanda olan bu acınacaqlı vəziyyətin səbəbi nədir? Səbəb "İranda hürriyyət" hekayəsində açılır. Bu əsər aktuallığına və realizminə görə ədibin "Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "Nigarançılıq", "Zırrama" və başqa klassik hekayələri ilə yanaşı durur. Əsərin ideyasında belə bir faciəli məqam dayanır ki, tipik surət səviyyəsinə qaldırılmış Kərbəlayi Məmmədəli hürriyyətin nə olduğunu, yəni, bu sözün leksik məzmununu belə, bilmir. Kərbəlayi Məmmədəli eşidir ki, İrana hürriyyət verilib. Fikirləşir ki, yəqin rus konsulu Arazın bu tayındakı iranlılara da – bir tikə çörək üçün çöllərə düşənlərə də hürriyyət paylayacaq. Kərbəlayi Məmmədəli

də, ikinci arvadı Pərinisə də hürriyyəti nə isə maddi bir şey bilib ondan bir pay gözləyirlər.

Cəlil Məmmədquluzadənin "İranda hürriyyət" hekayəsi XX əsrin əvvəllərində Cənubi Azərbaycandakı ictimai proseslərin səviyyəsini və mənzərəsini təsəvvür etməyə şərait yaradır. Hekayədəki mülahizələr mövcud vəziyyəti göstərməklə yanaşı, artıq milli oyanışa və azadlığa meylin olduğunu əyani şəkildə nümayiş etdirir: "Axı kim eşidibdi ki, o taydan bura hürriyyət gəlsin?! O taydan bu üzə həna gələr, səbzə, badam içi gələr, tütün, çay, tiryək… belə zadlar gələr. Yoxsa, vallah, mən də ömrümdə bir dəfə də eşitməmişəm ki, hürriyyət gələ. Heç bu tərəflərdə də hürriyyət alış – verişi eliyəni də mən eşitməmişəm" [3, c.1, s.161].

İctimai mühiti çox dolğun şəkildə ifadə edən bu hekayə insanın özünüdərki fonunda millətin özünüdərk problemini ortaya qoyur. "Poçt qutusu"nda əsrin ən adi texniki vasitəsinə nabələdlik fonunda mövcud vəziyyəti əks etdirən yazıçı "İranda hürriyyət"də daha irəli gedərək ciddi problemləri önə çəkir. Buna görədir ki, ədəbiyyatşünaslıqda "İranda hürriyyət" hekayəsi "düşündürücü, cəlbedici ideya məzmunu ilə əsl milli özünüdərk nümunəsi, ...bədii vasitələrlə ifadə olunaraq hər bir dövr üçün müasir səslənən, "hürriyyət payı" [3, c.1, s.16] kimi qiymətləndirilmişdir.

Ədib "Quzu" hekayəsində gününü eyş-işrətlə keçirən xandan bir quzunun pulunu üç dəfə almağı bacaran fərasətli kəndli obrazı yaratmışdır.

"Danabaş kəndinin məktəbi" povestində yazıçı göstərir ki, şükranlıq xalqın qanına hopdurulmuşdur və bu keyfiyyətlərdən qurtulmayınca kütlənin bir xalq kimi formalaşması ləngiyəcəkdir. "Danabaş kəndinin əhvalatları" povestində təsvir olunan kənddəki sadəlövhlük mühitindən fərqli olaraq "Danabaş kəndinin məktəbi"ndəki kənddə müəyyən dərəcədə itaətkarlıq psixologiyasından az da olsa, narazılıq hissləri özünü göstərir. Hər iki əsərin adı adamlara yox, mühitə münasibəti əks etdirir. Bu kənd Cəlil Məmmədquluzadənin təsvirində tipik Azərbaycan kəndidir. Yazıçı kəndin və onun adamlarının təsvirində, ümumiyyətlə, ölkədəki ictimai geriliyi göstərməyə çalışır. "Danabaş kəndinin əhvalatları" tək bir povesti deyil, ədibin silsilə nəsr əsərlərini ehtiva edir. Bu sırada "Danabaş kəndinin məktəbi" maraqlı bir yer tutur. Müəllif Azərbaycan kəndini tədricən oyanışda, mühitə etiraz qığılcımları fonunda təsvir edir. "Danabaş kəndinin əhvalatları"ndakı sadəlövhlük üstündə köklənmiş kəndlə "Danabaş kəndinin məktəbi"ndəki kəndin arasındakı fərq bunu göstərir. Müəllifi narahat edən əsas məsələ "Danabaş kəndinin əhvalatları"ndakı avamlıq və geriliyin tipikliyidir. Ona görə də Cəlil Məmmədquluzadə eyni mövzuya müxtəlif baxışla yenidən qayıtmalı olur.

Hər iki əsərdə kəndin adının "Danabaş" olması təsadüfi deyil. Əvvəla, ədibin əsərlərində ictimai mühitin mənzərəsini ifadə edən belə kənd adları çoxdur. "Ətcələr", "Lehməli", "Samanlı", "Düdüklü", "Qapazlı", "İtqapan" və s. İkincisi, bu kənd adı Cəlil Məmmədquluzadənin Azərbaycan mühitinə tənqidi yanaşmasının ifadəsidir. O bilirdi ki, yalnız bu cür sərt ifadələrlə mühitə təsir etmək olar. Üçüncüsü, dünya satira təcrübəsində təsvir olunan yer adlarının satirik tonda təqdimi çox geniş yayılmışdır. 1769-1775-ci illər arasında satirik yazıçı A.İ.Novikovun "Truten", "Pustomelya", "Jivopisets", "Koşelyok" satirik jurnallarında təsvir etdiyi rus kəndlərinin adları məhz onun mühitə münasibətindən doğmuşdur. Yazıçının "Razorennaya" adı verdiyi və bir çox əsərlərində təsvir etdiyi kənd də XVIII əsrin tipik rus kəndidir. Sonralar təhkimçiliyin dəhşətlərini göstərmək üçün digər satiriklərin də istifadə etdikləri bu tipli kənd adları rus ədəbiyyatında çox populyar olmuşdur. Cəlil Məmmədquluzadənin yaradıcılığında "Danabaş kəndi" də mühitin, ümumi ətalətin rəmzi kimi hallandırılmışdır. Bu, rus ədəbiyyatından gəlmə bir hal deyildi, Azərbaycan reallığının ifadəsi idi.

Ümumiyyətlə, böyük ustad Cəlil Məmmədquluzadə yaratdığı obrazlarla, xüsusilə, sadə insan obrazları ilə, onların saf, halal, səmimi, təvazökar, inamlı, etiqadlı, diribaş, mübariz düşüncələri və davranışları fonunda mühitin mənzərəsini canlandırır, problemlərini qabardır. Onun əsərlərində tədqiqatçı Ramiz Qasımovun qeyd etdiyi kimi, "...gülüş və tənqid "kiçik" adamın vasitəçiliyi ilə ictimai hədəflərə, mənbələrə yönəlir" [4, s.168].

Cəlil Məmmədquluzadə hansısa əsərində birbaşa və açıq şəkildə heç bir ideoloji məqam diqtə etməyib. Ədib "birbaşa deyilməsi lazım gələn adi məzəmməti də, danlaq və giley-güzarı da dolayı şəkildə söyləməyi çox sevir" [5, s.40]. Doğrudan da əgər yazıçı öz fikrini … müstəqim şəkildə

söyləmiş olsaydı, düşünmək üçün az imkan qalardı. Cəlil Məmmədquluzadə oxucunu düşündürən sənətkardır.

Ədib xalqın inkişafını maariflənmədə, milli oyanışda, iş görmək qabiliyyətində görür. “Usta Zeynal”ın, “Nigarançılıq”ın, “Şeir bülbülləri”nin və digər nəsr əsərlərinin mahiyyətində yazıçının mənsub olduğu xalqı inkişaf etmiş xalqların çərgəsinə çıxarmaq kimi bir arzusu dayanır. “Kişmiş oyunu” hekayəsindəki kəndlilərin bir qismi işlə məşğul olmaq istəyir. Əslində, Danabaş kəndindən fərqlənməyən Zurnalı kəndinin adamlarının bir çoxu qışı tövlədə keçirməklə məşğuldurlar. Kəndin adamları soyğunçuluqla məşğul olan iranlıların ayağını Zurnalıdan kəsmək üçün maraqlı bir hadisə quraşdırırlar və kəndlilərin avaralığına şərait yaradan bu adamları kənddən birdəfəlik qaçırırlar. Azərbaycan kəndlilərini belə ayıq-sayıq görmək Cəlil Məmmədquluzadəni çoxdan düşündürürdü. Arazın o tayından gələn acgöz, əmmaməli-qurşaqlı bədəməllərin fırıldağına inanmayan belə diribaş kəndli surətləri yaratmaqla ədib öz idealının bədii ifadəsini vermişdir. Bu idealın arxasında isə bütöv bir xalqın formalaşması və azadlığı arzusu dayanırdı.

**Nəticə.** Cəlil Məmmədquluzadə yaradıcılığı VƏTƏN, MİLLƏT, DİL trilogiyasının möhtəşəm ifadəsidir. Böyük azərbaycançı Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatına istiqlal düşüncəsi gətirmişdir. Açıq ana dilində yazmağın nümunələrini yaratmışdır.

Ədibin bütün əsərləri xalqın taleyi ilə birbaşa bağlıdır. Gerçək həyat həqiqətlərinə ayna tutan bu əsərlərdə konkret bir dövrün vəziyyətini, həm də ensiklopedik səviyyədə mənzərəsini seyr etmək və Azərbaycan insanının mənəvi-psixoloji aləmini öyrənmək olar. Azərbaycançılıq məfkurəsinin inikası olan bu əsərləri oxuyan hər kəs orda özünü görür, islah olunmaq istəyir, milli daxili-mənəvi azadlıq haqqında düşünür. Bu mənada Cəlil Məmmədquluzadə yaradıcılığı özünüislahın, azadlığın təcrübə məktəbi kimi böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı. “Azərbaycan” qəzeti, 18 yanvar 2019-cu il, №13.
2. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə. (Tanıtma kitabı, Azərbaycan, ingilis, fransız və rus dillərində), Naxçıvan, “Əcəmi”, 2009.
3. Məmmədquluzadə Cəlil. Əsərləri, 4 cilddə, I cild, (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli), Bakı, “Öndər”, 2004.
4. Qasımlı R. Cəlil Məmmədquluzadə yaradıcılığında “kiçik” adam obrazlarının ictimai-bədii funksiyası. Monoqrafiya. Bakı, “Elm və təhsil”, 2012.
5. Hüseynov Ə. Sənət yanğısı. Bakı, “Yazıçı”, 1979.